

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 135 (21.545)

*23 iyul 2016-cı il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyası keçirilmişdir





İyulun 22-də beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyası keçirilmişdir.

Sessiyanın gündəliyinə aşağıdakı məsələlər daxil edilmişdir:

1. 2016-cı ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları
2. Naxçıvan Muxtar Respublikasının 2015-ci il dövlət büdcəsinin icrasının təsdiq edilməsi
3. "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 2016-cı ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları ilə əlaqədar məruzə etmişdir. ***(Ali Məclis Sədrinin məruzəsi qəzetin bugünkü nömrəsində dərc olunur)***

Sessiyada Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri Kamal Cəfərov çıxış edərək demişdir ki, 2016-cı ilin ilk 6 ayı ərzində muxtar respublikada dinamik inkişaf qorunub saxlanmışdır. Cari ilin əvvəlindən əsas kapitala yönəldilən investisiyalar 0,3 faiz, kənd təsərrüfatının ümumi məhsulu 5,6 faiz, informasiya və rabitə xidmətləri 3,6 faiz, pərakəndə əmtəə dövriyyəsi 2,6 faiz, əhaliyə göstərilən pullu xidmətlər 3,9 faiz, ixracın həcmi 2,1 faiz, əhalinin gəlirləri 2,1 faiz, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı isə 2,9 faiz artmışdır. Muxtar respublikada iqtisadi və sosial sahələrdə infrastrukturun yenilənməsi məqsədilə cari ilin ilk 6 ayı ərzində bütün maliyyə mənbələri hesabına əsas kapitala 529 milyon 512 min manat həcmində investisiya yönəldilmişdir ki, bu da 2015-ci ilin müvafiq dövründəki göstəricidən 0,3 faiz çoxdur. Cari ilin əvvəlindən muxtar respublikada tikinti və ya əsaslı təmirdən sonra, ümumilikdə, 95 obyekt istifadəyə verilmiş, hazırda iqtisadi və sosial sahələrdə 130 müxtəlif təyinatlı obyektin tikintisi və ya yenidən qurulması davam etdirilir. Səmərəli idarəetmənin və əhaliyə göstərilən xidmətlərin səviyyəsini yaxşılaşdırmaq məqsədilə 6 kənd mərkəzi istifadəyə verilmişdir. Hazırda 10 kənd mərkəzinin inşası davam etdirilməkdədir.

Qeyd olunmuşdur ki, muxtar respublikada əhalini təzə və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək məqsədilə cari ilin ötən dövrü ərzində 1 istixana təsərrüfatı yaradılmış, 1 istixana təsərrüfatının genişləndirilməsi başa çatdırılmışdır. Hazırda tutumu 400 ton olan 2 soyuducu anbarın yaradılması və 1 istixana təsərrüfatının genişləndirilməsi davam etdirilir. Cari ilin ötən dövrü ərzində bitkiçilik sahəsi ilə yanaşı, heyvandarlıq da inkişaf etmiş, 6 yeni heyvandarlıq təsərrüfatı yaradılmışdır. İyul ayının əvvəlinə qaramalın sayı 118 min baş, xırdabuynuzlu heyvanların sayı isə 740 min baş təşkil etmişdir ki, bu da bir il öncəki göstəriciləri müvafiq olaraq 1,7 və 2,4 faiz üstələmişdir. Ötən dövrdə muxtar respublikadan kənara 39 milyon ABŞ dollarından artıq həcmdə kənd təsərrüfatı məhsulları ixrac olunmuşdur. Muxtar respublikada meliorasiya-irriqasiya sistemləri də davamlı qaydada yeniləşdirilmiş, 6 subartezian quyusu tikilmiş və ya bərpa olunmuş, 8 kəhriz təmir edilmişdir. Muxtar respublikada aparılmış məqsədyönlü tədbirlər informasiya və kommunikasiya texnologiyalarından istifadə imkanlarını daha da genişləndirmişdir. Görülmüş işlərin nəticəsidir ki, bu gün muxtar respublikanın yaşayış ərazilərinin 98 faizində genişzolaqlı internet, 83 faizində simsiz internet xidmətləri təşkil edilmiş, yaşayış ərazilərinin 100 faizində isə rəqəmsal televiziyanın yayımı təmin edilmişdir. Hazırda ümumi nömrə tutumunun 60 faizini yeni nəsil telekommunikasiya sistemi təşkil edir.

Kamal Cəfərov demişdir ki, qəbul edilən dövlət proqramlarının uğurlu icrası və həyata keçirilən digər mühüm tədbirlər səmərəli məşğulluğun təmin olunmasına geniş imkanlar yaratmaqdadır. Hazırda muxtar respublikada mülki sektorda 94 min nəfərdən artıq əhali stabil əməkhaqqı təminatı ilə işləməkdədir. 2016-cı ilin yanvar-iyun ayları ərzində muxtar respublikanın istehlak bazarında əhaliyə 662 milyon manatdan artıq həcmdə istehlak malları satılmış və pullu xidmətlər göstərilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,7 faiz çoxdur. Pərakəndə ticarət dövriyyəsində yerli məhsulların payına və hər bir nəfərə düşən pərakəndə əmtəə dövriyyəsinin həcminə görə Naxçıvan Muxtar Respublikası ölkə üzrə ilk yerlərdə təmsil olunur. Muxtar respublikada ümumi inkişafa uyğun olaraq bank sektoru da inkişaf etmişdir. 1 iyul 2016-cı il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 57 min 774-ə çatmışdır ki, bunun da 51 min 436-sı və ya 89 faizi aktiv hesablardır. Cari ilin ötən dövrü ərzində bütün sığorta növləri üzrə daxilolmalar isə 2 milyon 922 min 300 manat təşkil etmişdir.

Sessiyanın gündəliyinə daxil edilmiş ikinci məsələ ilə əlaqədar çıxış edən Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Xalid İsgəndərov Naxçıvan Muxtar Respublikasının 2015-ci il dövlət büdcəsinin icrası haqqında məlumat verərək demişdir ki, Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsinə 2015-ci ildə bütün mənbələr hesabına 69 milyon manat proqnoza qarşı 73 milyon 766 min 684 manat vəsait daxil olmuş, tapşırıq 106,9 faiz icra olunmuşdur. Bu, nəzərdə tutulan məbləğdən 4 milyon 766 min 684 manat çoxdur. 2015-ci ildə büdcə daxilolmalarının 85,6 faizi Vergilər Nazirliyi, 11,8 faizi Dövlət Gömrük Komitəsi tərəfindən, 2,6 faizi isə büdcə təşkilatlarının ödənişli xidmətləri vasitəsilə təmin edilmişdir. Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin xərcləri isə 2015-ci ildə 366 milyon 700 min manat təyinata qarşı 366 milyon 602 min 965 manat və ya 99,9 faiz icra olunmuşdur.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsinə 2016-cı ilin birinci yarımilində bütün mənbələr hesabına 31 milyon 532 min manat proqnoza qarşı 34 milyon 858 min 383 manat və ya 110,5 faiz icra olunmaqla 3 milyon 326 min 383 manat artıq vəsait daxil olmuşdur. 2016-cı ilin birinci yarımilində büdcə daxilolmalarının 82,4 faizi və ya 28 milyon 712 min 133 manatı Vergilər Nazirliyi, 13,7 faizi və ya 4 milyon 788 min 293 manatı Dövlət Gömrük Komitəsi, 3,4 faizi və ya 1 milyon 185 min 581 manatı büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxil olmuş, 172 min 376 manatı və ya 0,5 faizi isə digər daxilolmalar vasitəsilə təmin edilmişdir. Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin xərcləri 2016-cı ilin birinci yarımilində 168 milyon 947 min 480 manat təyinata qarşı 168 milyon 620 min 215 manat və ya 99,8 faiz icra olunmuşdur.

Sessiyada "Naxçıvan Muxtar Respublikasının 2015-ci il dövlət büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu qəbul olunmuşdur.

Gündəlikdə duran üçüncü məsələnin müzakirəsi zamanı qeyd olunmuşdur ki, Azərbaycan Respublikasının 2016-cı il 15 aprel tarixli Konstitusiya Qanunu ilə "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilmişdir. Dəyişikliyə əsasən müvəkkilin və onun aparatında yaradılan preventiv qrupun baş çəkdiyi – saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərin sırasına qanunsuz miqrantların saxlanılması mərkəzi də əlavə edilmişdir. Qeyd olunanlar nəzərə alınaraq "Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi hazırlanmışdır.

Sonra "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Naxçıvan Muxtar Respublikası Qanunu qəbul edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında, sabitliyin və sərhədlərin qorunmasında əməyi olanların hamısına təşəkkürünü bildirmiş, Milli Mətbuat Günü münasibətilə mətbuat işçilərini təbrik etmişdir.

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci çağırış üçüncü sessiyası öz işini başa çatdırmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun

## MƏRUZƏSİ

Hörmətli deputatlar və sessiya iştirakçıları!

1990-cı ilin 22 iyulu ölkəmizin tarixində ümummilli liderimizin Moskvadan Bakıya, oradan da Naxçıvana qayıdışı günüdür.

Xalqımızın böyük oğlu Moskvadan Naxçıvana qayıdışı ilə bağlı deyirdi ki, ***"Doğma Vətən torpağına... bu ağır və çətin dövrdə xalqın dərdinə şərik olmağa, vətəndaşlıq borcumu yerinə yetirməyə, azadlıq uğrunda mübarizəyə qoşulmağa gəlmişəm".***

Ulu öndərimizin rəhbərliyi ilə Naxçıvandan başlanan mübarizə Azərbaycana ikinci həyat verdi, ona müstəqillik bəxş etdi. Artıq Azərbaycan Respublikası 25 ildir ki, müstəqillik şəraitində yaşayır və inkişaf edir. Zaman baxımından o qədər də böyük olmayan bu dövrdə ölkəmiz, eləcə də Naxçıvan Muxtar Respublikası sürətli inkişaf yolu keçmişdir. Bu inkişafa ümummilli lider Heydər Əliyev siyasətinə və yoluna sadiqlik nəticəsində nail olunmuşdur.

Hər bir uğurun arxasında insan əməyi və nizam-intizam dayanır. Muxtar respublikamızda 2016-cı ilin "Nizam-intizamın daha da möhkəmləndirilməsi ili" elan olunması isə məsuliyyət hissini daha da artırmış, qəbul edilmiş dövlət proqramları vaxtında icra olunmuş, nəzərdə tutulmuş tədbirlərin, infrastruktur layihələrinin reallaşdırılması təmin edilmiş, sosial-iqtisadi həyatın bütün istiqamətləri üzrə müsbət dinamika qorunub saxlanılmışdır.

Muxtar respublikanın ümumi inkişafını xarakterizə edən ümumi daxili məhsul istehsalının həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə artaraq 1 milyard 144 milyon manatı ötmüşdür. Onun hər bir nəfərə düşən həcmi isə 2 min 568 manat təşkil etmişdir ki, bu da 2015-ci ilin ilk 6 ayı ilə müqayisədə 4 faiz çoxdur. Ümumi daxili məhsulun 59 faizdən çoxu maddi istehsalın payına düşür ki, bu da iqtisadi sahədə əldə olunan nailiyyətlərin dayanıqlığının əsas göstəricisidir.

İqtisadi dayanıqlığın təmin edilməsində 2014-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı ilə bağlı tədbirləri özündə əks etdirən üçüncü dövlət proqramına əməl olunması da mühüm rol oynayır. Nəzərdə tutulan tədbirlərin vaxtında yerinə yetirilməsi nəticəsində bu gün muxtar respublikada iqtisadiyyat şaxələndirilmiş, kənd təsərrüfatı ilə yanaşı sənayenin də aparıcı

*Ardı 2-ci səhifədə*

rolu təmin edilmişdir. Sənayedəki nailiyyətlər məşğulluq səviyyəsinin yüksəldilməsinə, əhali tələbatının yerli məhsullar hesabına ödənilməsinə, xarici ticarət dövriyyəsinin artırılmasına, yekun nəticədə əhalinin rifah halının yaxşılaşmasına öz təsirini göstərir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə sənaye məhsulunun həcmi 3 faiz artaraq 511 milyon 840 min manatdan çox olmuşdur. Mövcud sənaye müəssisələrinin fəaliyyətinin bərpası və yenidən qurulması, istehsal prosesində müasir texnologiyalara əsaslanan yeni müəssisələrin yaradılması nəticəsində muxtar respublikada sənaye müəssisələrinin sayı 442-yə çatdırılmışdır. Yerli istehsalın inkişafının nəticəsidir ki, bu gün muxtar respublikada 365 növdə məhsul istehsal olunur, 343 növdə məhsula olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilir.

Qeyd olunan dövrdə ümumi daxili məhsul istehsalında sənayenin payı 32 faiz təşkil etmiş, onun isə 96 faizi özəl bölmənin inkişafı hesabına əldə olunmuşdur.

İstehsal olunan sənaye məhsulunun 93 faizə qədəri emal müəssisələrinin payına düşmüşdür. Bu isə öz növbəsində sənaye müəssisələrini xammalla təchiz edən kənd təsərrüfatının inkişafının nəticəsidir. Bu gün kənd təsərrüfatının inkişafı ərzaq bolluğu, etibarlı ərzaq təminatı yaratmaq deməkdir. Ərzaq təminatı olmadan nə daxili bazarı qorumaq, nə də emal müəssisələrini təmin etmək mümkün deyil. Odur ki, bütün bu xüsusatlar diqqətdə saxlanmış, muxtar respublikamızda əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi istiqamətində tədbirlər davam etdirilmişdir.

Kənd təsərrüfatının müasir texnika və gübrə ilə təchiz olunmasına da diqqət artırılmışdır. 2016-cı ilin ötən dövründə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə daha 57 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və avadanlıq gətirilmiş, məhsuldarlığı artırmaq məqsədi ilə məhsul istehsalçılarına 4905 tondan çox gübrə verilmişdir.

Əkinçilikdə məhsuldarlığın artırılmasına çox böyük təsir göstərən meliorativ tədbirlər cari ilin ötən dövründə də davam etdirilmişdir. Belə ki, Babək rayonunda yeni nasos stansiyasının, Şərur rayonunun Xanlıqlar, Vərməziyar və Ələkli kəndlərində 589 hektar sahənin su təminatını yaxşılaşdırmağa imkan verən suvarma boru xəttinin tikintisi başa çatdırılmışdır. Hazırda Kəngərli rayonunun Böyükdüz və Xok kəndlərinin 107 hektar sahəsində qapalı suvarma şəbəkəsinin qurulması işi davam etdirilir.

Aqrar sahədə həyata keçirilən tədbirlər öz bəhrəsini vermiş, 2016-cı ilin məhsulu üçün 61 min 526 hektar sahədə əkin aparılmışdır. Strateji əhəmiyyətə malik taxılçılıq öz üstün mövqeyini qoruyub saxlamışdır. Hazırda cari ilin məhsulu üçün əkilmiş 31 min 579 hektar sahədə taxıl biçini davam etdirilir. Biçilmiş sahələrdən orta məhsuldarlıq 29,8 sentner təşkil edir.

Muxtar respublikada ekoloji cəhətdən saf meyvə-tərəvəz məhsullarının yetişdirilməsi üçün əlverişli şərait vardır. Bu məqsədlə 2016-cı il fevralın 8-də "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" qəbul olunmuşdur.

Bitkiçiliklə yanaşı kənd təsərrüfatının digər gəlirli sahəsi olan heyvandarlıq da inkişaf etdirilir. Yeni heyvandarlıq təsərrüfatlarının yaradılması, mövcud təsərrüfatların fəaliyyətinin genişləndirilməsi məqsədilə bank və kredit təşkilatları tərəfindən fermerlərə 6 milyon manatdan artıq kredit verilmiş, heyvanların cins tərkibini yaxşılaşdırmaq üçün tədbirlər davam etdirilmişdir.

Həyata keçirilmiş tədbirlər kənd təsərrüfatının inkişafına təkan vermiş, ümumilikdə 117 milyon 545 min manatadək məhsul istehsal olunmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 5,6 faiz çoxdur.

Ekoloji tarazlığın qorunması məsələləri də diqqət mərkəzində saxlanılmış, 246 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılmış, 216 mindən çox ağac və gül kolu əkilmişdir.

Ötən 6 ayda tikinti-quraşdırma və abadlaşdırma tədbirlərinə də diqqət artırılmışdır. Yaradılan müasir infrastruktur, istifadəyə verilən rahat yollar, sosial obyektlər, xidmət sahələri yaşayış məntəqələrimizin görkəmini dəyişməklə bərabər rahatlıq da gətirmişdir.

Mənzil şəraitinin yaxşılaşdırılması tədbirləri çərçivəsində Naxçıvan şəhərində bir ictimai yaşayış binası istifadəyə verilmiş, bir yaşayış binasının və "Gənclər şəhərciyi"nin tikintisi davam etdirilir.

Mühüm sahələrdən biri də yol-nəqliyyat infrastrukturunun yenilənməsidir. Ötən 6 ayda Naxçıvan şəhərində Avtomobil və Ehtiyat Hissələrinin Satış Mərkəzi və yeraltı qaraj istifadəyə verilmiş, Naxçıvan-Batumi-Naxçıvan avtobus marşrutu fəaliyyətə başlamış, Naxçıvan Beynəlxalq Hava Limanının "Qərb Terminalı"nda yenidənqurma, Ordubad dəmiryolu sərnişin vağzalında isə tikinti işləri davam etdirilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 may tarixli Sərəncamına əsasən Babək rayonunun 7 yaşayış məntəqəsini birləşdirən Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun yenidən qurulmasının ikinci mərhələsi davam etdirilir.

İnformasiya və rabitə sahəsində yeni texnologiyalar tətbiq olunmuş, göstərilən xidmətlərin əhatə dairəsi genişləndirilmişdir. Cari ilin ötən dövründə muxtar respublikada Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi sistemlərinin istifadəyə verilməsi vətəndaşlarla dövlət qurumları arasında münasibətlərin asanlaşdırılmasına, vaxt itkisinə yol verilmədən daxil olan müraciətlərə baxılmasına və cavablandırılmasına, mərkəzi və yerli icra hakimiyyəti orqanları arasında elektron sənəd dövriyyəsinin daha operativ təşkilinə şərait yaratmışdır.

Enerji təhlükəsizliyinin təmin olunması sahəsində işlər davam etdirilmiş, istehlakçılar elektrik enerjisi və təbii qazla fasiləsiz təchiz olunmuş, istifadə olunan enerji daşıyıcılarının dəyəri tam həcmdə ödənilmişdir.

Hazırda dünya iqtisadiyyatında iqtisadi baxımdan ən gəlirli sahələrdən biri turizmdir. Naxçıvanın qədim tarixi və müasir inkişafı, təbii müxtəlifliyi, unikal müalicə məkanları, tarixi və dini abidələrlə zənginliyi, qabaqcıl sosial-mədəni infrastrukturu turizmin inkişafı üçün əlverişli şərait yaradıb. Bununla yanaşı ictimai-siyasi sabitliyin təmin edilməsi də muxtar respublikaya turistlərin cəlbini artırmışdır. 2016-cı ilin ilk yarısında muxtar respublikaya 188 minə yaxın turist gəlmişdir.

Əgər inkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq, görərik ki, bu ölkələrdə iqtisadi inkişafı müəyyən edən əsas faktor kiçik və orta sahibkarlıqdır. Azərbaycan da bu yolla gedir. Kiçik və orta sahibkarlığın inkişafı üçün ardıcıl tədbirlər görülür.

Muxtar respublikamızın da iqtisadi inkişafında özəl sektorun mühüm rolu vardır. Sahibkarlığa göstərilən dövlət qayğısının nəticəsidir ki, cari ilin ötən dövrü ərzində fəaliyyətin bu növü ilə məşğul olmaq istəyən daha 12 hüquqi və 1223 fiziki şəxs qeydiyyata alınmışdır. Bank və kredit təşkilatları tərəfindən yeni istehsal müəssisələrinin yaradılması və ya fəaliyyətinin genişləndirilməsi məqsədilə 3 milyon 618 min manat, fərdi sahibkarlığın inkişafı məqsədilə isə 9 milyon 415 min manat həcmində kreditlər verilmişdir. Bu tədbirlərin nəticəsidir ki, hazırda muxtar respublikanın ümumi daxili məhsul istehsalında özəl bölmənin payı 87 faizi ötmüşdür.

Sahibkarlığın inkişafı yeni istehsal və xidmət sahələrinin fəaliyyətə başlamasına, iş yerlərinin açılmasına, əhalinin maddi rifah halının yaxşılaşmasına da təsir göstərir. Cari ilin yanvar ayının 11-də "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi işaxtaran vətəndaşların səmərəli məşğulluğunun təmin olunması, onların sosial müdafiəsinin gücləndirilməsi, əmək bazarının tələbinə uyğun olaraq peşə hazırlığının təşkili üçün geniş imkanlar açmışdır. Görülmüş işlər nəticəsində 2016-cı ilin ilk 6 ayı ərzində 1811 yeni iş yeri yaradılmışdır ki, onun da 98 faizə qədəri, yaxud 1768-i daimi iş yerləridir.

Maliyyə sabitliyinin və ümumi iqtisadi inkişafın təmin olunmasında nağdsız hesablaşmaların həcminin artırılması, elektron ödəniş sistemlərinin geniş tətbiqi mühüm əhəmiyyətə malikdir. Bu baxımdan 2016-cı il martın 2-də təsdiq olunmuş "2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"da nəzərdə tutulan tədbirlərin icrası maliyyə vəsaitləri dövriyyəsinin sürətlənməsinə, nağd pul kütləsinin daşınması, saxlanması və təsərrüfat əməliyyatları xərclərinin azalmasına səbəb olub. Ümumiyyətlə, bu tədbirlərin davamı kimi cari ilin iyul ayının əvvəlinədək muxtar respublikanın ticarət və xidmət müəssisələrində 1156 POS-terminaldan istifadə olunmuşdur.

Muxtar respublikanın dünya iqtisadiyyatına inteqrasiyasının mühüm göstəricilərindən olan xarici ticarət dövriyyəsinin həcmi ildən-ilə artır. Cari ilin yanvar-iyun ayları ərzində xarici ticarət dövriyyəsinin həcmi 207 milyon 98 min ABŞ dolları təşkil etmişdir. Ticarət əməliyyatlarının 91 faizi ixracın, 9 faizi isə idxalın payına düşmüşdür.

Həyata keçirilən sosial siyasətin mühüm istiqamətlərindən birini də təhsil, uşaq və gənclərə qayğı təşkil edir. Son illərdə istifadəyə verilən yüzlərlə məktəb binası, idman obyekti, mədəniyyət müəssisəsi, salınan universitet şəhərcikləri bir məqsədə – ölkəmizin gələcəyinin təminatçıları olan istedadlı, bilikli, sağlam və vətənpərvər nəslin yetişdirilməsinə hesablanıb. Muxtar respublikada 2016-cı ilin ötən dövrü ərzində 1806 şagird yerlik altı tam orta məktəb binası, bir peşə məktəbi istifadəyə verilmişdir. Bir lisey, bir məktəbəqədər, doqquz tam orta, bir orta ixtisas, iki ali təhsil müəssisəsi üçün binaların tikintisi və ya yenidən qurulması davam etdirilir.

İdman və bədən tərbiyəsi gənc nəslin fiziki inkişafında, sağlam böyüməsində, asudə vaxtının səmərəli təşkilində əhəmiyyətli rol oynayır. Muxtar respublikada idmanın maddi-texniki bazası gücləndirilir, gənclərlə iş və idman sahəsində məqsədyönlü tədbirlər görülür. Həyata keçirilən tədbirlərin, yaradılan infrastrukturun nəticəsidir ki, bu gün muxtar respublika müxtəlif beynəlxalq səviyyəli yarışlara ev sahibliyi edir. İdmançılarımız beynəlxalq yarışlarda ölkəmizi uğurla təmsil edirlər.

Cari ilin ötən dövrü ərzində əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində də işlər davam etdirilib. Səhiyyə sisteminin yenidən qurulması və müasir standartlara uyğunlaşdırılması, ixtisaslı kadrların hazırlanması, yoluxucu xəstəliklərin profilaktikası diqqət mərkəzində saxlanılıb. Belə ki, üç həkim ambulatoriyası, üç feldşer-mama məntəqəsi üçün yeni binalar istifadəyə verilmişdir. Kadr hazırlığı və səhiyyə obyektlərinin müasir avadanlıqlarla təchiz olunması sahəsində tədbirlər davamlı xarakter almışdır.

Ötən dövr Naxçıvan tarixinin öyrənilməsi, tədqiqi və təbliği ilə bağlı tədbirlərlə də yadda qalıb. Üç cildlik "Naxçıvan tarixi" kitabı nəşr olunmuş, muxtar respublikanın tarixi ilə bağlı ölkə arxivlərində yeni sənədlər aşkar olunaraq Naxçıvan Muxtar Respublikasının Dövlət Arxiv İdarəsinə təhvil verilmişdir.

Tarixin öyrənilməsi ilə yanaşı, bu tarixi özündə yaşadan abidələrin bərpası da diqqətdən kənarda qalmamışdır. Xalqımızın mübarizlik və vətənpərvərlik əzmini özündə əks etdirən, əyilməzlik simvoluna çevrilən Əlincəqalada bərpa işləri başa çatdırılmış, burada "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyi yaradılmışdır. Naxçıvan memarlığının nadir incilərindən sayılan Gülüstan türbəsi elmi və tarixi əsaslarla bərpa olunmuş, Qarabağlar Türbə Kompleksində bərpa işlərinin aparılmasına başlanmışdır. "Naxçıvan qalaları: tarixdə və günümüzdə" mövzusunda beynəlxalq konfrans keçirilmişdir ki, bu da Azərbaycan tarixinin öyrənilməsinə mühüm töhfədir.

Naxçıvan təkcə tarixi abidələri ilə deyil, həmçinin ziyarətgahları, dini-mədəni abidələri ilə də məşhurdur. Milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması istiqamətində həyata keçirilən tədbirlərin tərkib hissəsi kimi Şərur rayonundakı "İmamzadə" dini-tarixi abidəsində bərpa və yenidənqurma işləri aparılaraq başa çatdırılmışdır.

Naxçıvan şəhərində Bəhruz Kəngərli adına Rəssamlar Parkının istifadəyə verilməsi və abidəsinin ucaldılması dahi rəssamın şəxsiyyətinə və yaradıcılığına böyük ehtiramın ifadəsidir. Cari ilin may ayında "Naxçıvan – bəşəriyyətin beşiyi" 3-cü Beynəlxalq Rəsm Festivalının keçirilməsi də muxtar respublikada rəssamlıq sənətinin inkişafının daha bir göstəricisidir.

Muxtar respublikanın blokada şəraitində yaşaması, işğalçı ölkə ilə sərhəddə yerləşməsi ordu quruculuğu sahəsində tədbirlərin gücləndirilməsinin əhəmiyyətini artırır. Ordu birləşmə və hissələrinin döyüş qabiliyyəti və maddi-texniki bazası möhkəmləndirilmiş, hərbi qulluqçuların mənzil şəraiti yaxşılaşdırılmış, dörd şəhid ailəsi və sağlamlıq imkanları məhdud iki Azərbaycan Vətən Müharibəsi iştirakçısı yeni mənzillərlə təmin olunmuşdur.

İqtisadi sahədə dinamik inkişafın qorunub saxlanması, məşğulluq səviyyəsinin yüksəldilməsi, əhali arasında hüquq maarifinin, profilaktik tədbirlərin düzgün təşkili hesabına cinayətkarlıq halları artmamışdır.

Sosial-iqtisadi həyatın bütün sahələrində qazanılan uğurlar, yeni iş yerlərinin açılması, əhalinin rifah halının yaxşılaşması məskunlaşmaya və bununla yanaşı demoqrafik vəziyyətə də müsbət təsir göstərmiş, muxtar respublika əhalisi artaraq 446 min nəfəri ötmüşdür.

Sosial-iqtisadi inkişafa öz töhfəsini verənlərin əməyi həmişə olduğu kimi, bu il də qiymətləndirilmiş, Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə 31 nəfər Azərbaycan Respublikasının müxtəlif orden, medal və fəxri adları ilə təltif olunmuş, iki nəfərə ali hərbi rütbə verilmiş, bir nəfər Prezident təqaüdünə, doqquz nəfər Prezident mükafatına layiq görülmüşdür. Həmçinin altı nəfərə Naxçıvan Muxtar Respublikasının fəxri adları verilmişdir.

İlk 6 ayın yekunları onu deməyə əsas verir ki, 2016-cı ildə bundan əvvəlki ilə nisbətən daha yaxşı nəticələr qazanılacaqdır. Bunun üçün isə hər bir dövlət orqanı və qulluqçusu, hər bir vətəndaş üzərinə düşən işin öhdəsindən layiqincə gəlməli, muxtar respublikanın və Azərbaycanımızın gələcəyi naminə məhsuldar və səmərəli işləməliyik.

Sağ olun!

## Naxçıvan Muxtar Respublikasının 2015-ci il dövlət büdcəsinin icrası haqqında Naxçıvan Muxtar Respublikasının Qanunu

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 2-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Naxçıvan Muxtar Respublikasının 2015-ci il dövlət büdcəsinin icrası gəlirlər üzrə 73 766 684 manat, xərclər üzrə 366 602 965 manat məbləğində olmaqla təsdiq edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 22 iyul 2016-cı il*

## "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Naxçıvan Muxtar Respublikasının Qanunu

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 24-cü maddəsinin I hissəsinin 3-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 12.2.1-ci, 12.2.7-ci, 18-1.2.1-ci və 18-1.2.2-ci maddələrinə müvafiq olaraq "psixiatriya müəssisələri" sözlərindən sonra ", qanunsuz miqrantların saxlanılması mərkəzi" sözləri əlavə edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 22 iyul 2016-cı il*

# Naxçıvanda Milli Mətbuat Günü qeyd olunub

## Naxçıvan şəhəri

***İyulun 22-də Naxçıvan şəhərində Azərbaycan milli mətbuatının yaranmasının 141-ci ildönümü münasibətilə tədbir keçirilib.***



Tədbirdə "Şərq qapısı" qəzetinin baş redaktoru Tural Səfərov, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyinin direktoru Məmmədrza Ələsgərov, "Nuh yurdu" qəzetinin redaktoru Qafar Qənbərov, "Şərq qapısı" qəzetinin əməkdaşı Sara Əzimova çıxış ediblər. Bildirilib ki, görkəmli maarifçi və publisist Həsən bəy Zərdabi tərəfindən nəşr olunmağa başlayan "Əkinçi" qəzeti ilə əsası qoyulmuş Azərbaycan milli mətbuatı xalqımızın maariflənməsində mühüm rol oynayıb. Azərbaycan mətbuatı xalqımızın azadlıq arzularının gerçəkləşməsinə, milli-mənəvi dəyərlərimizin qorunmasına, mədəniyyətin tərəqqisinə, qabaqcıl ictimai fikrin, milli şüurun formalaşmasına böyük töhfələr verib. Xalqa söz və qələmlə xidmət göstərməyin mükəmməl nümunəsini yaradan "Əkinçi" qəzeti insanları yüksək ideallar uğrunda mübarizəyə səsləyib, milli oyanış və özünüdərk prosesinin aparıcı mətbu nümunəsi kimi tariximizdə qalıb.

Qeyd olunub ki, Azərbaycanda mətbuatın inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Xalqımızın böyük oğlunun ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə mətbuat orqanlarının müstəqil fəaliyyəti və inkişafı yolunda süni maneələrin aradan qaldırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib. Ulu öndər Heydər Əliyevin yolunu uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən kütləvi informasiya vasitələrinin inkişafı sahəsində ardıcıl tədbirlər görülür. "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyasının təsdiq edilməsi haqqında" Sərəncam ölkəmizdə kütləvi informasiya vasitələrinin inkişafına yeni imkanlar açıb. 2005, 2010 və 2015-ci illərdə Azərbaycan milli mətbuatının yaradılmasının 130, 135 və 140 illik yubileylərinin dövlət səviyyəsində qeyd edilməsi, yubiley münasibətilə Azərbaycan mətbuat işçilərinin təltif olunması, mütəmadi olaraq kütləvi informasiya vasitələrinə maliyyə yardımının göstərilməsi mətbuata göstərilən böyük qayğının ifadəsidir.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasında da mətbuata böyük diqqət və qayğı göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2000-ci il 29 mart tarixli "Naxçıvan Muxtar Respublikasında dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" Sərəncamından sonra mətbuat orqanlarının maddi-texniki bazası daha da gücləndirilib. Milli mətbuatımızın 135 illik yubileyində "Şərq qapısı" qəzeti redaksiyası və "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni redaksiya-nəşriyyat kompleksi istifadəyə verilib, müasir iş şəraiti yaradılıb, qəzetlərin rəngli nəşrinə başlanılıb. 2011-ci ilin noyabr ayında "Şərq qapısı" qəzetinin 90 illik yubileyi qeyd olunub, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov qəzetin 90 illik yubileyi münasibətilə "Şərq qapısı" qəzetinin və "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyinin kollektivləri ilə görüşüb, qəzet Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanı ilə təltif edilib.

Diqqətə çatdırılıb ki, 22 iyul tarixi həm də ulu öndər Heydər Əliyevin 1990-cı ildə Naxçıvana qayıtdığı gün kimi önəmlidir. Əgər o tarixi qayıdış olmasaydı, bu gün nə güclü, qüdrətli müstəqil Azərbaycan dövləti olacaqdı, nə də milli mətbuatımız belə yüksək inkişaf mərhələsi keçəcəkdi. Qeyd olunub ki, bu gün muxtar respublikada mətbuata göstərilən qayğının müqabilində yeni dövrün quruculuq və inkişaf tarixini yazmaq, milli maraqları daim uca tutmaq, cəmiyyət həyatına dərindən nüfuz etmək, qədim tariximizi, milli dəyərlərimizi yaşatmaq, maarifçilik işi aparmaq qələm sahiblərinin qarşısında dayanan əsas vəzifələrdir. Çalışacağıq ki, bu məsuliyyətli işin öhdəsindən layiqincə gələk.

Sonda bir qrup mətbuat işçisinə hədiyyələr təqdim olunub.

Tədbir çay süfrəsi arxasında davam etdirilib.

* * *

## Şərur rayonu

***Şərur rayonunda da milli mətbuatın yaranmasının 141-ci ildönümü ilə bağlı tədbir keçirilib. Tədbirdə rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov çıxış edərək "Şərurun səsi" qəzetinin inkişaf tarixindən danışıb.***

Qeyd olunub ki, Şərur rayonunda qəzetin ilk nömrəsi 1931-ci ilin oktyabr ayında buraxılıb. O dövrdə "Pambığa doğru" adlanan qəzetin cəmi iki əməkdaşı olub. 1954-cü ildə "Noraşen kolxozçusu" adı ilə fəaliyyətini davam etdirən Şərur rayon qəzeti bölgədə kənd təsərrüfatının və iqtisadiyyatın digər sahələrinin işıqlandırılmasına ciddi diqqət yetirir, geridə qalanların işini tənqid edirdi. 1959-cu ildə fəaliyyəti dayandırılan qəzet 1966-cı ilin yanvar ayından "İşıqlı yol" adı ilə çap olunub. Bu dövrdən başlayaraq 1992-ci ilədək müxtəlif dövrlərdə Şərur rayon qəzeti təcrübəli jurnalist Cəfər Məmmədovun, Rafiq Həsənovun, Hüseyn Əbdülhüseynovun və Mikayıl Əliyevin, həmin ildən bu günədək isə Elman Məmmədovun redaktorluğu ilə çapdan çıxıb. 1991-ci ilin yanvar ayından qəzet "Şərurun səsi" adı ilə oxucularının görüşünə gəlir. Müstəqillik illərində Şərur rayon qəzetinin kollektivi oxuculara bir-birindən maraqlı nömrələr təqdim etməyə çalışıb.

Bildirilib ki, kütləvi informasiya vasitələri işçilərinə göstərilən diqqət və qayğı "Şərurun səsi" qəzetinin də sərbəst fəaliyyətini təmin edib. Qəzetlərin fəaliyyəti üçün yaradılan hərtərəfli şərait, fəal jurnalistlərin əməyinin daim yüksək qiymətləndirilməsi bu gün muxtar respublikamızda nəşr olunan bütün mətbu orqanlar kimi, "Şərurun səsi" qəzetinin əməkdaşlarını da daha yüksək yaradıcılıq uğurlarına həvəsləndirir.

Sonra "Şərurun səsi" qəzetinin redaktoru, Azərbaycan Respublikasının Əməkdar jurnalisti Elman Məmmədov, qəzetin əməkdaşları – Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Babək İsmayılov, Vidadi Süleymanov və Mehman Məmmədov çıxış edərək mətbuat işçilərinə göstərilən qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

* * *

## Babək rayonu

***Babək rayonunda keçirilən tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov çıxış edərək mətbuata göstərilən qayğıdan danışıb.***

Bildirib ki, 1978-ci ilin oktyabrında Babək rayonu yaradılıb, bir qədər sonra, 1979-cu il yanvar ayının 1-də rayonun "Əmək bayrağı" adlı qəzeti fəaliyyətə başlayıb. Qəzet 1992-ci ildən "Şərqin səhəri" adı ilə çap olunur.

Vurğulanıb ki, muxtar respublikada mətbuatın inkişafına göstərilən qayğıdan "Şərqin səhəri" qəzetinə də pay düşüb, redaksiyaya yeni kompüter dəsti və fotoaparat verilib. Bu gün qəzet ayda 4 dəfə rəngli, böyük formatda çap olunur.

"Şərqin səhəri" qəzetinin redaktoru Hafizə Əliyeva, Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının sədri İsa Məmmədov, rayon Ağsaqqallar Şurasının sədri Vaqif Hüseynov, Təhsil Şöbəsinin müdiri Ovni Muradov çıxışlarında ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda mətbuata göstərilən dövlət qayğısının davamlı xarakter aldığını, belə qayğının mətbuat işçilərinin məsuliyyət hissini daha da artırdığını bildirib, Milli Mətbuat Günü münasibətilə mətbuat işçilərini təbrik ediblər.

* * *

## Ordubad rayonu

***Ordubad rayonunda da Milli Mətbuat Günü münasibətilə tədbir keçirilib. Tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov, icra başçısının müavini Fərqanə Hüseynli, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Vilayət Bağırov, "El həyatı" qəzetinin redaktor əvəzi Abbas Seyidov çıxış ediblər.***

Bildirilib, 1932-ci il iyul ayının 24-də Ordubad rayonunda nəşrə başlayan "Ordubad fəhləsi" qəzeti özündən əvvəlki ənənələri yaşatmağa çalışıb, müxtəlif illərdə "Ordubad işçisi", "Yeni Ordubad" adları ilə çap olunub. 1991-ci il yanvar ayının 1-dən "El həyatı" adı ilə nəşr olunmağa başlayan qəzet ayda 4 dəfə oxucuları ilə görüşür. "El həyatı" qəzetinin fəaliyyətini normal şəkildə davam etdirməsi üçün hər cür imkan və şərait yaradılıb, redaksiya işçiləri müasir iş otaqları, mebel dəstləri, kompüter, fotoaparatla təmin olunublar. Rayon qəzeti müasir dövrün tələbləri ilə ayaqlaşmaq üçün öz fəaliyyət istiqamətini bir qədər də genişləndirib, özünə geniş oxucu auditoriyası toplaya bilib, rayon həyatının güzgüsü rolunu oynamaq üçün bütün imkanlarını səfərbərliyə alıb. Qəzet rayonun ictimai həyatında fəal rol oynayır. Bölgənin tarixinin, bugünkü inkişafının və digər sahələrin salnaməsini yaratmaq üçün üzərinə düşən vəzifələri yerinə yetirməyə səy göstərir.

## Culfa rayonu

***Milli mətbuatın yaranmasının 141-ci ildönümü münasibətilə Culfa rayonunda keçirilən tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev çıxış edib.***

Qeyd olunub ki, müstəqilliyimiz bərpa edildikdən sonra demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunu özünün inkişaf modeli kimi qəbul edən Azərbaycanda söz və məlumat azadlığının təmin edilməsi, kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyətinə zəruri şərait yaradılması prioritet vəzifə kimi müəyyənləşdirilib.

Ümummilli lider Heydər Əliyevin siyasi iradəsi və böyük səyləri nəticəsində plüralizmi, söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələr aradan qaldırılıb, kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən qanunvericilik bazası təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırılıb.

Bildirilib ki, mətbuatın inkişafı sahəsində Naxçıvan Muxtar Respublikasında da mühüm tədbirlər həyata keçirilib. Təməli 1935-ci ildə qoyulan "Arazın səsi" qəzetinin inkişaf mərhələsi 1995-ci ildən başlayıb. Muxtar respublika rəhbərinin mətbuatın inkişafına göstərdiyi yüksək diqqət və qayğı "Arazın səsi" qəzetinin də məhsuldar fəaliyyətini təmin edib.

Sonra "Arazın səsi" qəzetinin redaktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Hüseyn Şəkərəliyev, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Fərəc Fərəcov mətbuat orqanlarına göstərilən diqqət və qayğıdan danışıb, rayonun mətbu orqanı olan "Arazın səsi" qəzetinin keçdiyi yoldan bəhs ediblər.

* * *

## Kəngərli rayonu

***Kəngərli Rayon İcra Hakimiyyətində Azərbaycan milli mətbuatının 141-ci ildönümü münasibətilə keçirilən tədbirdə "Yeni həyat" qəzetinin əməkdaşları və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.***

Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov jurnalistləri bayram münasibətilə təbrik edib, mətbuatın keçdiyi uzun və şərəfli yoldan danışıb.

Tədbirdə Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının sədri Sevda Quliyeva, rayon Ağsaqqallar Şurasının sədri Nahas Səfərov, 2005-2006-cı illərdə "Yeni həyat" qəzetinin redaktoru vəzifəsində çalışmış Cabir Hacıyev çıxış ediblər. Çıxışlarda qeyd olunub ki, muxtar respublikamızda söz, fikir və məlumat azadlığı yüksək səviyyədə təmin edilib. Kütləvi informasiya vasitələrinə dövlətimiz tərəfindən hərtərəfli qayğı göstərilir. Bu qayğıdan Kəngərli rayonunun mətbu orqanı olan "Yeni həyat" qəzetinə də xeyli pay düşüb, qəzet əməkdaşlarının fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb. Göstərilən qayğının müqabilində qəzetin əməkdaşları da bölgədə milli-mənəvi dəyərlərin qorunub saxlanması və təbliğində, rayonun ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatındakı yeniliklərin ictimaiyyətə çatdırılmasında üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışırlar.

* * *

## Sədərək rayonu

***Milli Mətbuat Günü sərhəd bölgəsi olan Sədərək rayonunda da qeyd olunub. Bu münasibətlə keçirilən tədbiri Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov açaraq "Oğuz yurdu" qəzetinin kollektivini təbrik edib.***

Bildirilib ki, bu gün müstəqil Azərbaycan dövləti əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş hüquqi-demokratik dövlət quruculuğu yolu ilə daha parlaq gələcəyə doğru inamla addımlayır. Mətbuatın inkişafına göstərilən diqqət və qayğı muxtar respublikamızda fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin də hərtərəfli inkişafını təmin edib. İnanırıq ki, yaradılmış şərait jurnalistlərin bundan sonra da yaxşı işləməsinə, üzərlərinə düşən məsuliyyətli və şərəfli vəzifələrin öhdəsindən layiqincə gəlməsinə imkan verəcəkdir.

"Oğuz yurdu" qəzetinin redaktoru Sərxan İsmayılov çıxışında qeyd edib ki, rayon İcra Hakimiyyətinin orqanı olan "Oğuz yurdu" qəzetinin ilk nömrəsi 2000-ci ildə işıq üzü görüb. İlk illərdə kiçik ölçüdə və ayda, sadəcə, iki dəfə buraxılan qəzet hazırda ayda dörd dəfə oxucuların görüşünə gəlir. Sərhəd bölgəsinin ictimai, siyasi, mədəni həyatını olduğu kimi işıqlandırmağa çalışan qəzet rayonun güzgüsü olmağa çalışır.

Tədbirdə Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Arif Qasımovun, Sədərək kənd 1 nömrəli tam orta məktəbin direktoru Gülnarə Hüseynovanın, rayon Gənclər və İdman İdarəsinin rəisi Etibar Əliyevin çıxışları olub. Çıxış edənlər "Oğuz yurdu" qəzetinin kollektivinə səmimi təbriklərini çatdırıblar.

Onu da qeyd edək ki, bütün rayonlarda bir qrup mətbuat işçisinə hədiyyələr verilib, tədbirlər çay süfrəsi arxasında davam etdirilib.

* * *

## Şahbuz rayonu

22 iyul – Milli Mətbuat Günü münasibətilə Şahbuz rayonunda keçirilən tədbiri rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev açaraq mətbuat işçilərini bayram münasibətilə təbrik edib, muxtar respublikada mətbuata göstərilən dövlət qayğısından danışıb. Bildirib ki, ulu öndər Azərbaycan mətbuatının hər zaman himayədarı olub, bu sahənin inkişafı üçün misilsiz xidmətlər göstərib.

Tədbirdə "Oğuz səsi" qəzetinin redaktoru Şəhla Nəbiyeva, qəzetin keçmiş əməkdaşı Xanlar Səfərəliyev çıxış ediblər.

Qeyd edilib ki, "Oğuz səsi" qəzeti 80 ilə yaxındır, milli mətbuat tarixindən miras qalmış ənənələri davam etdirməklə rayonun ictimai həyatında fəal rol oynayır. 1936-cı ildə – sosializmin qələbə çaldığı bir dövrdə "Sosializm maldarlığı", 1966-cı ildən isə "Qabaqcıl" adı ilə nəşr olunan qəzetin adı müstəqillik illərində dəyişib. 1991-ci ildən "Oğuz yurdu", 1992-ci ildən isə "Oğuz səsi" adı ilə nəşr olunan qəzet fəaliyyət göstərdiyi illərdə həm ideoloji işin, həm də milli dəyərlərin yaşadılması baxımından rəngarəng yazılarla oxucu ünvanına yol tapıb, böyük auditoriya qazanıb. Bu gün "Oğuz səsi" qəzetinin əməkdaşları rayonun inkişaf salnaməsini yaradırlar.

**Xəbərlər şöbəsi**

*1918-1920-ci illərdə Naxçıvanın igid döyüşçüləri erməni daşnaklarına qarşı çox mərdliklə döyüşüblər. 1918-ci ildə Naxçıvan diyarının ən çətin dövrlərində burada vuruşan bacarıqlı hərbçilərimiz 1917-ci ilədək Rusiya ordusunda hərbi xidmətlərdə olublar. Bu səbəbdən onların hər birinin xidmət kitabçası Rusiya Dövlət Hərbi-Tarix Arxivində saxlanılır. Bu sənədlərlə tanışlıqdan əvvəl 1918-1920-ci illərdə Naxçıvan Milli Komitəsinin katibi işləmiş Mirzə Bağır Əliyevin həmin vaxtlar qələmə aldığı bəzi tarixi hadisələri xatırlayaq:*

*Axtarışlar, tapıntılar*

## Naxçıvanın igid süvarilərindən biri – ordu komandiri, polkovnik *Kərim xan İrəvanski*



"1918-ci il miladi, 23 dekabr. Şərur nahiyəsinin baş komandanı Kərim xan tərəfindən verilən telefonun məzmunu: "İrəvanda fransız nümayəndələri oturmuşlar. Müsəlman kəndlərinin adamları bu son zamanda müharibəsiz ermənilərə tərksilah olaraq təslim olmuşlar. Bunlara ermənilər olmazın cəza və cəfa verməkdədirlər. Müsəlmanların cavan, işbilən və möhtərəmlərindən tutub edam edirlər..."

1918-ci il miladi, 30 dekabr. Şərur nahiyəsində Naxçıvan əsgərlərinə atəş açdıqlarına görə Kərim xan Maku sərdarına müharibə etmək üçün ultimatum vermişdir.

1919-cu il miladi, 9 yanvar. Sədərəyi tutmaq istəyən daşnakların teleqramı Naxçıvan Milli Şurasında və ingilis vəkillərinin hüzurunda oxunandan sonra Kərim xan Şərur nahiyəsində duran Naxçıvan qoşununa telefon vasitəsilə irəli yeriyib, İrəvanadək getmək əmrini verdi".

Həmin bu tarixi xronikalarda adıçəkilən Kərim xan kimdir?

Qeyd edək ki, əvvəlki yazılarımızda azacıq da olsa, Kərim xan haqqında məlumat vermişdik. Yazımızın sonunda oxuculara bildirmişdik ki, bu qəhrəman döyüşçü ilə bağlı ciddi axtarışlarımız var.

İndi o axtarışlar başa çatıb. Və biz qəhrəman döyüşçümüz və igid süvarimizlə bağlı arxiv sənədlərindən və Rusiyada yaşayan tədqiqatçıların araşdırmalarından öyrəndiklərimizi və Türkiyədən tapdığımız fotoşəkli də oxucularımıza təqdim etmək istəyirik.

Kərim xanın Rusiya Dövlət Hərbi-Tarix Arxivinin bir neçə fondunda sənədləri vardır. Həmin sənədlərdən məlum olur ki, Kərim xan Abbasqulu xan oğlu İrəvanski 15 noyabr 1883-cü ildə İrəvanda anadan olub. Onun atası Abbasqulu xan İrəvan xanlığının əsasını qoyan məşhur Hüseynəli xan Sərdarın varislərindəndir. Abbasqulu xanın atası Möhübəli (Mehbalı) xan Sərdarın nəvəsidir.

Kərim xanın anası Tərlan xanım isə naxçıvanlı general İsmayıl xan Naxçıvanskinin – Kəngərlinin qızıdır.

Kərim xan uşaqlıq illərinin çoxunu Naxçıvanda, ana babası İsmayıl xanın malikanəsində keçirib və babasından hərb sənətinin sirlərini öyrənib. Belə bir mühit Kərim xanı Rusiyanın ən məşhur süvari məktəbinə – Yelizavetqrada aparıb çıxarır. O, süvari məktəbini bitirdikdən sonra, 1907-ci ildə kornet hərbi rütbəsini alıb və 44-cü Nijeqorod draqun polkunda hərbi xidmətini davam etdirib.

1909-cu ilin may ayından 1912-ci ilin avqustuna kimi çarın leyb-qvardiya polkunda xidmət edib. Birinci Dünya müharibəsi başlayanda Kərim xan İrəvanski poruçik hərbi rütbəsində idi.

Hərbi nazirliyin 30 sentyabr 1914-cü il əmri ilə o, Qafqaz süvari diviziyasının tərkibində olan Kabardin süvari polkuna dəyişdirilir.

30 iyul 1915-ci ildə Kərim xana qvardiya ştabs-rotmistri rütbəsi verilir. Qeyd edək ki, həmin vaxtlarda yerlilərdən təşkil olunmuş Qafqaz yerli süvari diviziyasının komandiri, general-mayor böyük knyaz Mixail Aleksandroviç Romanov idi. Məqamındaca qeyd edək ki, Qafqaz yerli süvari diviziyası ikinci süvari korpusunun tərkibində idi və korpusa Kərim xanın qohumu general-leytenant Hüseyn xan Naxçıvanski rəhbərlik edirdi.

1915-ci ilin oktyabr ayında Hüseyn xan Naxçıvanski Qafqaz ordusunun baş komandanı olub. 1916-cı ilin aprelində isə o, qvardiya süvari korpusuna komandirlik edib. 1915-ci ilin noyabrında ikinci süvari korpusuna kabardin zadəganlarından general-mayor K.Xaqondokov rəislik edib.

1916-cı ilin fevral ayında böyük knyaz M.A.Romanov ikinci süvari korpusuna komandir təyin olunur.

27 iyul 1917-ci ildə Kərim xana rotmistr hərbi rütbəsi verilir. Həmin ilin 29 sentyabrında Kərim xan İrəvanskini yenidən Kabardin süvari polkuna hərbi xidmətə göndərirlər.

Hərbi arxivdəki sənədlərdən məlum olur ki, Birinci Dünya müharibəsində Kərim xanın göstərdiyi igidliklər Rusiya çarı tərəfindən yüksək qiymətləndirilib. Belə ki, 1914-cü il dekabrın 17-18-də Kərim xanın xidmət etdiyi Kabardin polku Vetlino kəndinin ətrafında gedən döyüşlərdə fərqləndiyinə görə ona əlahəzrətin 9 yanvar 1915-ci il tarixli əmri ilə üzərində "İgidliyə görə" yazılmış dördüncü dərəcəli "Müqəddəs Anna" ordeni verilir. Qorxmaz süvari olan Kərim xan 26 avqust 1915-ci ildə üçüncü dərəcəli "Müqəddəs Stanislav" (qılınclarla və bantla birlikdə), 2 aprel 1916-cı ildə isə üçüncü dərəcəli "Müqəddəs Anna" (qılınclarla və bantla birlikdə) ordeni ilə təltif olunub.

Cənub-qərb cəbhəsi ordusunun 19 mart 1917-ci il tarixli əmri ilə Kərim xana dördüncü dərəcəli "Müqəddəs Vladimir" ordeni (qılınclarla və bantla birlikdə) verilib.

Dördüncü ordunun əmri ilə 25 mart 1917-ci ildə Kərim xan ikinci dərəcəli "Müqəddəs Anna" (qılınclarla birlikdə) ordeni ilə də mükafatlandırılıb.

Ordunun və hərbi dəniz donanmasının əmri ilə 8 oktyabr 1917-ci ildə rotmistr Kərim xan İrəvanski məşhur hərbi mükafat – Georgi silahı ilə təltif olunub. Hərbi tədqiqatçı Eldar İsmayılovun yazdığına görə, Kərim xan bu yüksək mükafatı alarkən Qafqaz yerli süvari diviziyasının tərkibində olan Kabardin polkunun 4-cü yüzlüyünün komandiri olub. Qeyd edək ki, tədqiqatçı E.İsmayılov onun doğum tarixini 1885-ci il kimi göstərib.

İgid həmyerlimizin 1917-ci ilin oktyabrından sonrakı (Şimali Qafqazdakı) fəaliyyətini tarix elmləri namizədi, podpolkovnik, Kabarda-Balkar hökuməti Humanitar Tədqiqatlar İnstitutunun və Rusiya Elmlər Akademiyasının Nalçik şəhərində yerləşən Kabarda-Balkar Elmi Mərkəzinin böyük elmi işçisi Aslan Kazakovun apardığı araşdırmalardan öyrənirik. Onun yazdıqlarından məlum olur ki, Kərim xan Kabardin süvari polku ilə 1917-ci ilin oktyabr ayında Şimali Qafqaza gəlib. Həmin ilin noyabrında Kərim xan Kiçik Kabardanın Axlovo (indiki Nijniy Kurp) kəndində yerli əhalini quldur hücumlarından qoruyurmuş.

11 yanvar 1918-ci ildə Kərim xan Nalçikin zənginlərindən olan balkar qızı Şəmsidə Aydebulov ilə evlənir. Arxiv sənədlərindən məlim olur ki, Kərim xanın birinci həyat yoldaşı Hüseyn xan Naxçıvanskinin arvadının əmisi qızı İnna Herbel olub. Nikah tarixi 19 yanvar 1910-cu il kimi qeyd edilib. Tədqiqatçı hərbçi-alim Aslan Kazakovun yazdığına görə, Kərim xan "Azad Kabarda" partiyasının üzvlərinin yaratdığı ikipolklu Kabardin süvari briqadasının tərkibində bolşeviklərə qarşı döyüşüb.

Azərbaycan Xalq Cümhuriyyətinin (1918-20-ci illərə aid) sənədlər külliyyatında (Bakı-1998, s.282-283) olan xidmət qeydlərindən (28 yanvar 1919-cu il, əmr №364) məlum olur ki, Azərbaycan Xalq Cümhuriyyətinin 28 fevral 1919-cu il tarixli sərəncamı ilə Cənub-Qərbi Azərbaycan General-Qubernatorluğu yaradılıb və Kərim xan İrəvanski general-qubernatorun hərbi işlər üzrə köməkçisi təyin edilib.

Kərim xanın Naxçıvana gəldiyi tarixi araşdırdıq. Arxiv sənədlərindən məlum oldu ki, o, 1918-ci ilin sonlarında Naxçıvana gəlib. 28 yanvar 1919-cu ildə verilən 364 nömrəli əmrdə olan qeydlərdən məlum olur ki, Kərim xan polkovnik rütbəsindədir və onun komandiri olduğu könüllü döyüşçülərin sayı 1000 nəfərdən çoxdur. Bu əmrdə qeyd edilib ki, onun rəhbərlik etdiyi döyüş dəstəsi podpolkovnik Kalbalı xan Naxçıvanskinin rəislik etdiyi qərargaha tabedir. Hətta onun döyüşçülərinin iki döyüş topunun olduğu da yazılıb. Qeyd olunub ki, Kərim xanın komandirlik etdiyi dəstə ermənilərlə döyüşdə böyük şücaətlər göstərib.

Yuxarıda söhbət açdığımız sənədlər külliyyatından (s.292) məlum olur ki, 26 mart 1919-cu ildə general-qubernatorun hərbi işlər üzrə köməkçi vəzifəsi ləğv olunub. Yeri gəlmişkən, M.Bağır Əliyevin "Qanlı günlərimiz" adlı gündəliyində Kərim xanın döyüş hünərləri haqqında ətraflı məlumatlar var və həmçinin Kərim xana, bacısı oğlu III Kalbalı xana və onun atası Cəfərqulu xana – bu məşhur hərbçilərə qarşı general-qubernator Cəmillinskinin apardığı rəqabət mübarizəsi gündəliklərdə qeyd edilib. Amma sənədlərdə göstərildiyi kimi deyil. Kərim xanı işdən azad etməyiblər. O, özü istefa verib və yəqin ki, bundan sonra yenidən Kabardaya qayıdıb. Kərim xan İrəvanski, qardaşları Əli xan, Hüseyn xan, Həsən xan, həmçinin qardaşı oğlu Allahyar xan Naxçıvanın erməni daşnaklarından müdafiə olunmasında böyük xidmətlər göstərmiş, rəşadətlə vuruşmuşlar. Gələcək yazılarımızda bu qəhrəman döyüşçülər haqqında da söhbət açacaq və fotoşəkillərini təqdim edəcəyik. Bu fotoları uzaq xarici ölkələrdən əldə etmişik.

Polkovnik Kərim xan (qeyd edək ki, rus tədqiqatçılarının sənədlərində onun son hərbi rütbəsi rotmistr kimi göstərilir, ancaq Azərbaycan Xalq Cümhuriyyətinin arxiv sənədlərində onun hərbi rütbəsi polkovnik kimi yazılıb) 1919-cu il oktyabrın əvvəllərində Tsaritsin cəbhəsində gedən döyüşlərdə həlak olub. Onun cənazəsi Nalçik şəhəri yaxınlığındakı Volnıy Aul kəndinin qəbiristanlığına gətirilib və o, bu qəbiristanlıqda torpağa tapşırılıb.

*Kabarda-Balkariyanın Nalçik arxivində də axtarışlarımız davam edir. İgid süvari, qəhrəman döyüşçü, Naxçıvanın, Şərurun ən çətin günlərində özünü onların müdafiəsinə yetirən və sənədlərin dili ilə desək, böyük qəhrəmanlıqlar və şücaətlər göstərən Kərim xan İrəvanski Azərbaycan hərb tarixində həmişə yaşamağa mənəvi haqqı olan bir sərkərdədir.*

**Musa QULİYEV**
***AMEA Naxçıvan Bölməsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru***

## Ağdamın işğalından 23 il ötür



***Azərbaycanın qədim və çox böyük tarixə malik rayonlarından biri olan Ağdamın işğalından 23 il ötür. Respublikamızın həyatında Ağdam rayonu həm iqtisadi, elmi potensialına, həm də insanlarının fədakarlığına görə həmişə çox mühüm rol oynamışdır.***

Ağdam rayonunda çoxlu sayda tariximizin şahidi olan memarlıq abidələri var. Ağdam şəhərinin şimal-qərbindəki Xındırıstan kəndində yerləşən Üzərliktəpə abidəsi, Xaçındərbənd kəndindəki Qutlu Musa oğlu günbəzi (1314-cü il), Salahlı-Kəngərli kəndindəki türbə və daş abidələri (XIV əsr), Papravənd kəndindəki Xanoğlu türbəsi (XVII əsr), Qarabağ xanı Pənahəli xanın və onun nəslinin Ağdam şəhərindəki imarəti (XVIII əsr), Şahbulaq qalası və digər memarlıq abidələri bu yurdun qədim Azərbaycan torpağı olduğunu təsdiq edir.

Ağdam inzibati rayonu 1930-cu ildə təşkil olunmuşdur. Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ötən əsrin 70-ci illəri Ağdamın tarixinə də inkişaf və tərəqqi dövrü kimi düşmüşdür. Həmin dövrdə iri aqrar, sənaye, təsərrüfat rayonuna çevrilən, bölgənin iqtisadi mərkəzi olan Ağdam ötən əsrin 90-cı illərinin əvvəllərində özünü Qarabağın məğrur qalası kimi göstərdi.

1993-cü ilin iyununda erməni təcavüzkarları Azərbaycanda baş vermiş siyasi böhrandan istifadə edərək yeni hücum əməliyyatlarına başladı. Ermənistanın işğalçı qüvvələri Ağdam rayonunun Qarqar çayına, Saybalı kəndinə qədər olan ərazini işğal etdilər. Düşmən sürətlə irəliləyirdi. Malıbəyli kəndində güclü döyüşlər gedirdi. İyulun 23-də 43 gün düşmənə sinə gərmiş Ağdam şəhəri işğal olundu.

Ağdamın işğaldan əvvəl 88 min 395 hektar ərazisi, 1 şəhəri, 119 kənd və qəsəbəsi olub. Ağdam rayonunun mişardaşı, Çobandağ əhəngdaşı, Boyəhmədli və Şorbulaq kimi gil yataqları işğal olunmuş ərazilərdə qalıb. Rayon ərazisindən uzunluğu 104 kilometr olan Xaçın çayı axır. Ağdam şəhərində yaşı 150-250 olan 14, Boyəhmədli kəndi ətrafında isə yaşı 400 ilə çatan 71 ədəd Şərq çinarı ağacı təbiət abidəsi kimi qorunurdu.

Vətən uğrunda gedən döyüşlərdə 6 mindən çox ağdamlı şəhidlik zirvəsinə yüksəlib, minlərlə insan əlil olub, 126 min nəfərdən çox ağdamlı öz doğma ev-eşiyindən didərgin düşüb. Azərbaycanın cəsarət rəmzi, Qarabağın mübarizlik istinadgahı olan Ağdamın böyük hissəsi indi düşmən nəzarətində olsa da, xalqımız onun tezliklə azad olunacağına əmindir. Ölkənin müxtəlif guşələrində məskunlaşaraq Ağdam qubarını qəlbində həsrətə çevirənlərin bir istəyi, təmənnası var: tez bir zaman ərzində doğma yurda qayıtmaq!

Bu gün hər bir ağdamlı əmindir ki, barlı-bərəkətli torpaqlarımız tezliklə işğaldan azad ediləcək. O gün uzaqda deyil. Ağdam yenidən abadlaşacaq, gözəlləşəcək və keçmiş şöhrətini özünə qaytaracaq. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Necə ki biz Horadizi bərpa etdik və orada gözəl şərait yaratdıq, eləcə də bu gün hələ də işğal altında qalan bütün başqa ərazilərdə yenidənqurma, bərpa işlərini aparacağıq. O cümlədən Ağdam şəhərini yenidən quracağıq.***

***...Ağdamda bir dənə də salamat bina qalmamışdır. Bütün binalar dağıdılıb, sökülüb. Binalardan bütün əşyalar erməni talançıları, erməni oğruları tərəfindən aparılıb, talan edilibdir.***

***Ona görə biz o bölgələrə, Ağdama qayıdandan sonra yenidən o gözəl tarixi şəhərimizi bərpa edəcəyik. Bizim buna gücümüz, iradəmiz çatacaqdır. Mən ümid edirəm ki, biz Ağdamı və bu gün işğal altında qalan başqa şəhərlərimizi qısa müddət ərzində tam bərpa edəcəyik".***

Ordumuzun sonuncu hərbi əməliyyatları qələbə gününün çox yaxında olduğunu göstərdi. Aprel ayının əvvəlindəki dördgünlük müharibədə Azərbaycan Ordusu çox böyük şücaət sərgilədi. Rəşadətli, igid əsgər və zabitlərimizin qəhrəmanlığı sayəsində Azərbaycan çoxdandır ki, arzusunda olduğu, yaşamaq istədiyi bir hissi – QƏLƏBƏ hissini yaşadı. İgid döyüşçülərimiz neçə illərdir ki, düşmən tapdağı altında qalan, bizi haraya, qisasa səsləyən torpaqlarımızın bir hissəsini azad etdilər və üçrəngli bayrağımızı orada dalğalandırdılar. Tezliklə Ağdam şəhərində, Şuşada və digər işğal olunmuş ərazilərimizdə də Azərbaycanımızın şanlı bayrağı dalğalanacaqdır.

**Səbuhi HƏSƏNOV**

***İtmişdir***

Rzayev Əsgər Məmməd oğlunun adına olan ümumvətəndaşlıq pasportu itdiyindən etibarsız sayılır.

**ŞƏRQ** *qapısı*

**Baş redaktor:**
**TURAL SƏFƏROV**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Hüseynov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1050. Sifariş № 565**